**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI**




**31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TOPLANTI**

# P R O Q R A M

**29 mart 2018-ci il**

**Bakı-2018**



*Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət verdirmək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**

## G İ R İ Ş   S Ö Z Ü

**Vəli Hüseynov** — Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri əvəzi, AAK sədrinin müavini

**31 Mart Soyqırımı Azərbaycan xalqına qarşı törədilmiş ən böyük cinayətlərdən biridir**

*Məruzəçi:* **Rafail Əhmədli,**
Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Humanitar, ictimai elmlər və sənətşünaslıq şöbəsinin müdiri

## Ç I X I Ş L A R

* * *

Toplantı 29 mart 2018-ci il tarixdə saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası binasının 2-ci mərtəbəsində yerləşən Akt zalında öz işinə başlayacaq.

# Ali Attestasiya Komissiyasında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü qeyd edilib




***Martın 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında 31 Mart - azərbaycanlıların soyqırımının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Komissiyadan bildiriblər ki, əvvəlcə 1918-ci il 31 mart soyqırımının qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) sədr əvəzi, AAK sədrinin müavini Vəli Hüseynov 31 mart soyqırımının Azərbaycan xalqının tarixində ən qanlı səhifələrdən biri olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb. O qeyd edib ki, 1918-ci il martın sonlarından aprelin 3-dək Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində - Quba, Xaçmaz, Lənkəran, Şamaxı, Hacıqabul, Salyan, Zəngəzur, Naxçıvan, Qarabağ və digər ərazilərdə Bakı Soveti və Daşnaksütyundan olan erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilib. Xalqımız son iki əsrdə "böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin fasilələrlə xəyanətləri ilə onların törətdikləri faciələrlə üzləşib.

V.Hüseynov Prezident Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanının tariximizin ən önəmli sənədlərindən biri olduğunu qeyd edərək, ulu öndərin bu soyqırımı ilə bağlı aşağıdakı fikrini tədbir iştirakçılarının nəzərinə çatdırıb: "Xalqımıza qarşı törədilmiş soyqırımı haqqında həqiqətləri real faktlar, dəlillər əsasında dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırmaq, saxta erməni təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, ona hüquqi-siyasi qiymət vermək nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi bu gün də, gələcəkdə də davam etdirilməlidir. Bu, soyqırımı qurbanlarının xatirəsi qarşısında indiki nəslin müqəddəs borcudur".

Daha sonra AAK-ın sədr əvəzi erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı törədilmiş 31 mart soyqırımının və digər soyqırımlarının dünya ictimaiyyətinə düzgün çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasətdən və bu siyasətin real nəticələrindən bəhs edib.

Tədbirdə çıxış edən AAK-nın şöbə müdirləri Rafail Əhmədli, Arif Ələkbərov, Hüseyn İbrahimov və Tahir Kazımov 31 mart soyqırımının səbəblərindən və ağır nəticələrindən bəhs ediblər.

***AZƏRTAC***